**UOT: 73/76.**

**Siddiqə Hacıyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dissertant**
**e-mail: sshaciyevaa@gmail.com**

# XALQ RƏSSAMI CƏLİL HÜSEYNOVUN YARADICILIĞINA MƏXSUS NATÜRMORTLARIN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə istedadlı rəssam Cəlil Hüseynovun müəlliflik etdiyi natürmortların bədii xüsusiyyətləri haqqında konkret məlumat verilmişdir. Bu məqsədlə məqalədə verilmiş illüstrasiyalar üzərində aparılmış təhlillər məqalənin maraq dairəsini artırmaqdadır.

Cəlil Hüseynovun yaradıcılığı üçün bədii düşüncələrin reallaşmasında müasir dövrün meyllərini və ritmlərini əks etdirən müasir bədii ideyaların tətbiqi ilə yanaşı, ənənəvi meyllər də səciyyəvidir. Bunu sənətkarın demək olar ki, bütün əsərlərinə aid etmək olar. Bu mənada rəssamın natürmortlarında tamaşaçıda sadəcə təsvir elementi kimi verilmiş detallara deyil, həmin təsvirlərin maraqla qarşılanmasını təmin edən məkana da maraq yaranır. Sənətkar bunu həm real, həm də dekorativ planda həyata keçirilmiş təsvir vasitələri ilə həyata keçirmişdir.

**Açar sözlər**: rəng, rəngkarlıq, kompozisiya, natürmort, rəssam.

Görkəmli rəssam Cəlil Hüseynovun müəlliflik etdiyi natürmortlar, mənzərələr, obrazlar aləmi özünün yüksək emosionallığı, bədii ifanın xüsusi təsir qüvvəsi ilə seçilir. Həmin rəngkarlıq nümunələri yüksək peşəkarlığı, təkrarolunmaz milli koloriti ilə səciyyələnərək, yeni rəssam nəslinin estetik tərbiyəsində, eləcə də zövqünün formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Rəssamın tematik tablolarında köməkçi rol oynayan müxtəlif əşyalar konkret bir mövzu üzrə ayrılıqda təsvir olunduqda müəllifin həyata münasibəti ifadə edən mühüm mənbə əhəmiyyətini qazanır.

Ümumiyyətlə, Cəlil Hüseynovun yaradıcılığı üçün bədii düşüncələrin reallaşmasında müasir dövrün meyllərini və ritmlərini əks etdirən müasir bədii ideyaların tətbiqi ilə yanaşı, ənənəvi meyllər də səciyyəvidir. Bunu sənətkarın demək olar ki, bütün əsərlərinə aid etmək olar.

Rəssamın natürmortlarında izləyici sadəcə təsvir elementi kimi verilmiş detallara deyil, həmin təsvirlərin maraqla qarşılanmasını təmin edən məkana diqqət ayırır. Sənətkar bunu bəzən real formalarla, bir çox hallarda isə dekorativ planda həyata keçirməklə məqsədinə nail olmağı bacarmışdır. Qeyd edilənlərə misal olaraq "Qarpızlarla natürmort" əsərini göstərmək olar. Əsərdə dilimlənmiş qarpız təsvirləri kompozisiyasının şaquli istiqamətində bütün tablo boyu verilmişdir. Bunun üçün rəssam 110x70 sm. ölçüsündə verilmiş tabloda əsərin formatını enli şəkildə həll etməyi məqsədəuyğun hesab etmişdir. Ümumiyyətlə, Cəlil Hüseynovun əsərlərindəki yüksək bədii keyfiyyətlərə aparan yollardan biri də onun istər natürmort, istərsə də digər janrlarda həll etdiyi kompozisiyalarında yaradıcı konsepsiyasının anlaşılmasında formatın xarakterini ən sıx şəkildə əsərin bütün daxili strukturu ilə sıx əlaqədə həll etməsidir. Qeyd edilən natürmortda da bu xarakteri görürük. Verilmiş elementlər boz rəngli fonun böyük hissəsini, hətta sağ və sola doğru bütünlüklə örtən tünd narıncı divar qarşısında canlandırmışdır. Burada rəssam olduqca solğun xətti formalarla yaradılmış damaların hər dörd bucağında qırmızı rəngli nöqtələr yerləşdirmişdir. Hansı ki, həmin nöqtələrin rəngi dağınıq halda az şəkildə verilmiş gilaslarla uyğunluq təşkil edir. Əsərdə isti qırmızı, narıncı çalarların bir araya gəlməsi ilə izləyici məkan və naturanı eyni anda qavramış olur. Yaxın tonların arxadakı boz fonla təzad təşkil etməsi kompozisiyada sadəcə natürmortun material üzərinə köçürülməsi ilə deyil, tamaşaçısını bütünlükdə həmin natürmortun daxil olduğu məkanla birlikdə müsbət enerjinin bədii ifadəsi ilə qarşılaşdırır.

Rəssamın yaradıcılığına məxsus digər "Qarpızlarla natürmort" əsərində isə tamamilə fərqli kompozisiyada iştirak edən digər elementlərlə əlaqələndirilmiş sənət nümunəsi diqqətimizi cəlb edir. Yaşıl, mavi, tünd çəhrayı rənglər sanki bir yerdə qarpız diliminin qırmızı tonuna qarşı gələrək ziddiyyət yaradır. Bu cür təsvir sayəsində sənətkar məhz əsas olanı digər elementlərdən ayırmaqla diqqət cəlb etməyə nail ola bilmişdir. Hündür ağ vazada tünd rəngli gilasların bir hissəsi masaya dağılmış, yamyaşıl armudlar dağınıq şəkildə masa üzərində sıralanmışdır. Masanın ağ örtüyü ilə arxa fonun açıq mavi rəngi arasında yaxın ton əlaqəsi yaradılmışdır ki, bütün bunlar birlikdə kəskin şəkildə qarpız təsvirindən ayrılaraq sanki onu "təkləməklə" diqqətin rəssamın əsas məqsədinə doğru yönəlməsinə imkan yaradır.

Cəlil Hüseynovun natürmortlarındakı digər bir xüsusiyyət onların ikiölçülü məkan daxilində işığa görə dəyişən rəng və tonları sayəsində formaların sanki üçölçülü formatda özünü göstərməsidir. Kölgənin fonla bərabər uyğun rəng həllində verilməsi, onun işığın dəyişən tonuna görə rəng dəyərlərinin tündləşib-açılması eyni zamanda dekorativ rəngkarlıq prinsiplərinin əsaslarının kompozisiyadakı parlaq təsvirlərini göstərir. Tabloda fonun bir qədər tünd olması, masanın daha açıq rəngi ilə əsərdə yuxarı və aşağı hissələr arasında rəng balansı yaratmaqla əşyaların yerləşdiyi qismin ağır basmasına imkan yaratmayaraq harmonik görüntü meydana çıxarılmışdır. Qeyd olunanlar sadəcə kompozisiyanın yuxarı və aşağı hissələrinin qarşılaşmasında deyil, eyni zamanda sağ və sol hissələrdə də eyni təsirdə özünü göstərməkdədir. Məsələn, sağ hissədə verilmiş dörd ədəd armud, sol hissədə iki ədəd olaraq təkrarlandığı üçün rəssam gilasların bu hissədə daha artıq, digər hissədə isə az formada verilməsi ilə qeyd edilən balans nüansını doğru dəyərləndirməyi bacarmışdır.

Bu xüsusiyyəti “Üzümlə natürmort” əsərində fərqli formada özünü göstərərək diqqətimizi cəlb edir. Rəssam natürmortun əsas təsvir obyekti olan üzümləri tablonun mərkəzində iki rəngdə - sarı və qara üzüm salxımları ilə əks etdirmişdir. Sarı üzümlər daha hündür olaraq arxada, qara salxım isə yan qoyulmuş şəkildə ön hissədə verilmişdir. Natürmortun digər təsvir obyekti olan yemiş dilimləri isə eyni formada üzümlərin sağ və sol hissələrində tərənnüm edilərək əsərdə harmonik görüntünü meydana gətirmişdir. Qeyd edilən bədii xüsusiyyət sadəcə naturaların real formaları ilə məhdudlaşmayaraq, rəssamın həmin təsvirlərin yerləşdiyi məkanı da onlara uyğun “rəngləməklə” əldə edərək yüksək bədii dəyərə məxsus sənət əsərinə müəlliflik etmişdir. Bunu hər şeydən əvvəl arxada verilmiş göy fon üzərində işıq ləkələrinin əsər üzərindəki parlaqlığı bütünlükdə kompozisiyanın dəyərini yüksəltdiyini qeyd etmək olar. Fonun sağ və sol hissəsində enli yarımsütunlar həll edilmişdir ki, rəssam burada onların üzərində tonal ləkələrin verilməsi ilə tərəflər arasında uyğunluq yaratmışdır. Həmin hissələr eyni zamanda sarı yemiş dilimlərinin arxasında verilmişdir ki, bununla da çalarlar arasındakı təzad daha kəskin formada özünü göstərməklə ritmik rəng oyunu ilə natürmorta olan marağı artırmağa davam edir. Fonun mərkəzdəki zolağının rəngindən bir ton açıq çaların arxa planın sağ və sol hissələrində verilməsi, eləcə də masanın üzümlər yerləşən hissəsində aşağıya doğru örtük kimi istifadə edilməsi məkan və elementlər arasındakı əlaqələndirmə zamanı sadəcə rəng dəyər-

lərinə görə deyil, eyni zamanda forma xüsusiyyətlərinə görə də uyğunluq yaradaraq kompozisiya bütövlüyünü meydana çıxardığının şahidi oluruq. Damalı tünd göy rəngdə olan masa örtüyünün üzüm salxımlarının alt qismində digər element olaraq verilməsi əsərin arxa və ön planları arasındakı xüsusi rəng qarşılaşmasında statistikliyi aradan qaldıraraq, qeyd edildiyi kimi element və rəng xüsusiyyətlərinin aralarındakı bədii qarşılaşması sayəsində dinamik görüntünün yaradılması ilə nəticələnmişdir.

Cəlil Hüseynovun eyni element tərənnümünə həsr edilmiş, ilk baxışda oxşar kompozisiya quruluşu təsiri bağışlayan əsərləri üzərindəki təhlil zamanı onların olduqca özünəməxsus xüsusiyyətlərlə meydana çıxaraq hər birində tamaşaçı üzərində yaratdığı fərqli təsirlərin olduğunu görürük. Bunlardan eyni adlı "Ananaslarla natürmort" iki əsər üzərindəki təhlil qeyd olunanları aydın şəkildə təsdiq edir.

Eyni formatda və yaxın detal xüsusiyyətlərindən istifadə edən rəssam birinci kompozisiyada dekorativ-tətbiqi sənət nümunəsi olan kilim tipli təsvirin dekorativliyi ilə ananasın forma və rəng dəyərləri arasında əlaqə yaratmaqla diqqəti cəlb etmişdir. Kubizm cərəyanın bədii xüsusiyyətlərindən uğurla faydalanan sənətkar həndəsi formaların asimmetriyasını həm element, həm də fon üzərində həll etmişdir. Asimmetriya işıq nüansının yaratdı, kölgələrin vasitəsilə də öz həllini tapmışdır. Düz formada olan kilimin divar üzərində maili formada saldığı kölgəni misal kimi göstərmək olar. Onun üzərində qəhvəyi və ağ rəngdə verilmiş düzbucaqlılar cərgə ilə sıralanmışdır. Onun düz forması ilə yan hissədə həll edilmiş ananasın quruluşu arasında yaradılmış əlaqələndirmə adi gözlə görünənin kətana köçürülməsi fikrindən tamamilə uzaq, formaların uyğun qarşılşadırlması ilə sənətkarın gözəllik anlayışını meydana çıxarmışdır.

Əsərdə kilim divar boyu tablonun yuxarı sağ və aşağı sol hissəsində verilmiş natürmortların yan qismində tərənnüm edilmişdir. Verilmiş iki hissəli masanın üstündə işıq effekti ilə bəzi hissələrinin xüsusi parlaqlıqla özünü göstərdiyi ananasın yan tərəflərində mavi və sarı xırda yuvarlaq detallar verilərək yüksək dekorativlik əldə edilmişdir. Rəssamın elementləri bəzən təbii rənglərində deyil, onların xarakterikliyini ifadə edən şəkildə canlandırması əsərdə aşağı qisimdə verilmiş narın ağ çaları ilə izah edilir. Sıralanmış xırda yuvarlaq təsvir elementləri narın yanında onu boşluqda qoymadığı kimi, bütünlükdə kompozisiyanın da dolğun bədii ifadəsinə təsir göstərmişdir.

Cəlil Hüseynovun natürmortlarında verilmiş təsvir elementlərinin məkanla əlaqələndirilməsi burada sadəcə fon ilə deyil, həmin mühitin xarakterikliyini meydana çıxaran təsvir manerası ilə bu sənət əsərlərinin dəyərini yüksəldir. Məsələn, şərab şüşələri ilə verilmiş natürmortlarda məkanın daha romantik-lirik, bir qədər də ehtiras doğuran ab-havası, eləcə də digər detalların uyğunlaşdırılması qeyd olunanların bariz təsdiqidir. 1998-ci ildə yaradılmış "Şərabla natürmort" əsərini qeyd olunanlara uğurlu nümunə olaraq göstərmək olar.

Əsərdə verilmiş natürmortun əsasında dayanan şərab şüşəsinin tünd rəngi ilə məkan və digər elementlərin açıq rəng dəyərləri arasındakı fərq əsas olanın özünü daha aydın göstərməsi ilə əsərin mənasını açıqlamışdır. Masanın üzərində verilmiş ağ boşqabda sarı meyvələr bir qədər maili formada həll edilməklə kənara atılmış digər meyvələrin önündə sanki bir fon rolunu oynayır. Masa örtüyünün ağ rəngdə verilməsi şərab şüşəsinin tünd çaları ilə təzad təşkil etməklə onun xüsusi diqqət çəkməsinə imkan yaradır. Əsərin maraqlı hissəsi masanın alt hissəsində verilmiş aşağıya doğru olan örtüyün göy damalı naxışlarının sağ hissədə solğun kölgə kimi verilərək məkan və element əlaqələndirməsində estetikliyin yüksək həllinə nail olunmasıdır. Burada masanın şərab şüşəsinin rəngi ilə uyğunlaşdırılmış tünd çalarları qeyd edilən bədii ifadənin aydın görünməsində əhəmiyyət daşıyır. Natürmort ağ planşetin önündə verilsə də, rəssam sadəcə təsvirə cəlb edilən elementlərin tərənnümünü boşluqda saxlamayaraq rəng, kölgələrin elementə çevrilmiş təsvirləri ilə məkanı dolğunlaşdıraraq yüksək bədii dəyərə malik sənət nümunəsinə müəlliflik etmişdir.

Cəlil Hüseynovun natürmortlarında yan-yana gələn müxtəlif əşyaların uğurlu əlaqələndirilməsi onların əsərin ümumi xarakterinə tabe edilərək rəng, forma, tərəflər arasında balans prinsipi ilə həyata keçirilir. Misal olaraq belə əsərlərindən birinə diqqət yetirdiyimizdə, masa üzərində örtüyün dağınıq forması, dağılan meyvələrin səth üzərindəki pərakəndəliyi diqqəti cəlb edir. Əsərlər üzərindəki təhlil bu təsviri dağınıqlıqda harmonik uyğunluq, yaradıcı nizamın var olduğunu təsdiqləyir.

Hər zaman gözəlliyin tərənnümünə çalışan Cəlil Hüseynovun əsərlərində çox nadir də olsa realizmin qabarıq ifadəsinə rast gəlinir. Məsələn, belə əsərlərindən olan 1996-cı ildə yaratdığı "Güllər" adlı etüdü göstərmək olar. Əsərdə rəssam tünd, hətta qara fon üzərində sıx şəkildə sıralanmış ağ qızıl güllərin gözəlliyini öz reallığında canlı şəkildə tərənnüm etməyə həvəs göstərmişdir.

Burada o, gözəllik və ona münasibətini ifadə edərək sanki çiçəklərin ləçəkləri üzərində kölgə salan zərif açıq yasəməni tonallığı olduqca zərif formada ifadə etmişdir. Önə doğru öz ağ rənginin parlaqlığını ifadə edən güllərin arxaya doğru tündləşməsini tonal ləkələrin, xüsusi işıq effektinin vasitəsilə olduqca təbii formada ifadə edilir. Rəng qatlarının sərt yaxılarına baxmayaraq yasəməni, yaşıl kimi tonların aralıqlarda incə atışları əsərdəki lirizmin həssaslığını aydın şəkildə tamaşaçısına hiss etdirir.

Cəlil Hüseynovun natürmort yaradıcılığında əsasən bədii-estetik yanaşma əsaslandırılaraq, predmetlərin mövcud məkan daxilində əlaqələndirilmiş bədii ifadəsi ilə öz izahını tapır. İstedadlı rəssam natürmort janrında icra etdiyi kompozisiyalarında formaların seçilməsi, rəng keçidlərinin həlli, işıq-kölgə oyunlarının istifadəsi və digər bədii təsvir ifadələrində, eləcə də üslubların qarışdırılmasında özünəməxsus fərdi xüsusiyyətləri ilə yüksək bədii dəyərə malik əsərlərə müəlliflik etmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Комаров А.А. «Технология материалов стенописи», М.1989.
2. Габибов Н. «Живопись Советского Азербайджана». Баку, 1982.

**Сиддига Гаджиева**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ НАТЮРМОРТОВ НАРОДНОГО ХУДОЖНИКА ДЖАЛИЛА ГУСЕЙНОВА

**Резюме**: В статье представлены конкретные сведения о художественных особенностях натюрмортов, автором которых является талантливый художник Джалил Гусейнов. С этой целью анализ иллюстраций, представленных в статье, повышает интерес к статье. Для творчества Джалила Гусейнова наряду с применением современных художественных идей, отражающих тенденции и ритмы современности в реализации художественных замыслов, характерны и традиционные тенденции. Это можно отнести практически ко всем работам художника. В этом смысле в натюрмортах художника у зрителя возникает интерес не только к деталям, данным как элемент изображения, но и к пространству, которое обеспечивает интерес к этим изображениям. Художник реализовал ее средствами изображения, как в реалистическом, так и в декоративном плане.

**Siddiqa Hajiyeva**

## ARTISTIC FEATURES OF STILL LIFES CREATED BY THE PEOPLE`S ARTIST JALIL HUSEYNOV

**Summary**: The article tells about artistic features of still lifes created by the talented artist Jalil Huseynov. So, analysis of the illustrations set in the article increases interest to the topic. Together with features and rhythms of the time traditional features are also characterstic for Jalil Huseynov's creative activity. This fact belongs nearly to the artist's all works. In this meaning in the artist's still lifes are interested not only depicted details but also the locations too. The artist realized it by means of depictions both in real and decorative plans.

**Key words**: still life, ilistrations, rhythym, artistic features, depiction.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**